# Dövlət – din modeli mövzusunda konfrans



**Dünən “Heydər Əliyev İli” çərçivəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 22 illiyinə həsr olunmuş “Azərbaycanın dövlət-din modeli” mövzusunda konfrans keçirilib.**

Sədr Mübariz Qurbanlı 22 il bundan əvvəl, 2001-ci ilin iyun ayının 21-də Ulu öndər Heydər Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsi məqsədilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə sərəncam imzaladığını bildirib. DQİDK sədri vurğulayıb ki, Ümummilli liderin əsasını qoyduğu dövlət-din siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Komitə sədri diqqətə çatdırıb ki, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun milli-mənəvi dəyərlərimizin, zəngin tolerantlıq ənənələrimizin ölkədə və beynəlxalq aləmdə təbliği istiqamətində ardıcıl fəaliyyəti dövlət komitəsinin qarşısına qoyulmuş vəzifələrin yerinə yetirilməsinə əlverişli zəmin yaradır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov çıxışında dini qurumlarla işin qurulması, onların dövlət qeydiyyatına alınması, dinşünaslıq ekspertizasının aparılması, dini maarifləndirmə fəaliyyətinin təşkili, beynəlxalq münasibətlərin, eləcə də ictimaiyyətlə əlaqələrin inkişafından danışıb. O, İslam dininə aid ibadət yerlərində vakant vəzifələrin tutulması ilə bağlı müsahibənin statistikasını açıqlayıb. Onun sözlərinə görə, birinci vakansiya zamanı ümumilikdə 270 sənəd qəbulu olub və onlardan 133-ü müsahibədən keçib. Müvəffəqiyyət qazananların 112-si müvafiq vəzifələrə təyinat alıb. Təşkil edilən ikinci müsahibə zamanı isə 254 müraciətdən 66-sı müsahibədən keçib və 55 nəfəri rəsmi din xadimi kimi fəaliyyətə başlayıb. Ötən müddət ərzində 118 din xadimi işindən uzaqlaşdırılıb.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmərxanım Cavadlı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev, İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, Alban-udi xristian dini icmasının sədri Robert Mobili və Azərbaycan Bəhailəri Dini Mərkəzinin katibi Ramazan Əsgərli və başqaları DQİDK-nın həm 22 ildə keçdiyi uğurlu yoldan, həm də günün reallıqları çərçivəsində üzərinə düşən vəzifələri yüksək səviyyədə həyata keçirdiyindən danışıblar.

Sonda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 22-ci ildönümünü ilə bağlı dövlət komitəsində qulluq keçən və xidmətdə fərqlənənlər fəxri fərmanla təltif olunublar.

***Q.QASIMOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2023.- 22 iyun.- S.8.